Noyabr 2018

PwC Azerbaijan Times

18 saylı Buraxılış

Buraxılışın əsas xəbərləri:

- **Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə verilməsi Qaydası**
- **Rezidentlər və qeyri-rezidentlər tərəfindən milli valyutanın nağd şəkildə və milli valyutada ifadə olunmuş qiymətli kağızların Azərbaycan Respublikasından çıxarılması və Azərbaycan Respublikasına gətirilməsi zamanı bəyan edilməsi Qaydası**
- **Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında Nazirlər Kabinetinin Qərarları**
- **Vergi mübahisələri üzrə məhkəmə təcrübəsi**
- **PwC Azərbaycan "Qlobal Influencer Day" Konqresinin Gümüş Sponsoru kimi iştirak edib**



Buraxılışda əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa aşağıdakı şəxslərlə əlaqə saxlaya bilərsiniz:

Arif Quliyev, Vergi və Hüquq Xidmətləri Departamentinin Rəhbəri, İdarəedici Direktor

arif.guliyev@pwc.com

Elçin Məmmədov, Direktor, Hüquqi Praktikanın Rəhbəri

elchin.mammadov@pwc.com

Marketinq və Kommunikasiya məsələləri üzrə Rəhbər
Aysel Süleymanova
aysel.suleymanova@pwc.com

PwC Azərbaycan

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2018 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə verilməsi Qaydası

Qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 oktyabr 2018-ci il tarixli №433 Qərarı ilə təsdiq olunub. Qaydalara əsasən, monitorinq iştirakçılarına benefisiar mülkiyyətçi barədə məlumatlar sorğu əsasında məlumat saxlayıcısı tərəfindən aşağıdakı hallarda verilir:

- işgüzar münasibətlər yaradılmasından əvvəl;
- on beş min manat məbləğində və ya bundan artıq məbləğdə həyata keçirilməsi gözlənilən hər hansı birdəfəlik əməliyyatdan əvvəl (bu hala həmçinin limit çərçivəsində həyata keçirilərək bir-biri ilə əlaqəsi olan və ümumi məbləği limitdən artıq olan bir neçə əməliyyat aiddir);
- məbləğindən asılı olmayaraq, hesab açılmadan həyata keçirilməsi gözlənilən pul köçürməsindən əvvəl;
- pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı olmasına şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar olduqda;
- müştəri və ya benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığına dair şübhələr olduqda.

Rezidentlər və qeyri-rezidentlər tərəfindən milli valyutanın nağd şəkildə və milli valyutada ifadə olunmuş qiymətli kağızların Azərbaycan Respublikasından çıxarılması və Azərbaycan Respublikasına gətirilməsi zamanı bəyan edilməsi Qaydası

Qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 oktyabr 2018-ci il tarixli №434 Qərarı ilə təsdiq olunub. Qaydalara əsasən, rezident və qeyri-rezident hüquqi şəxslər nağd milli valyutanı (kağız və metal pul nişanları), milli valyutada ifadə olunmuş qiymətli kağızları və milli valyutada ifadə olunmuş yubiley və xatirə pul nişanlarını nominal məbləğindən asılı olmayaraq gömrük orqanlarına bəyan etməklə, Azərbaycan Respublikasından çıxara və Azərbaycan Respublikasına gətirə bilərlər.

Rezident və qeyri-rezident fiziki şəxslər 20000 manat məbləğinədək olan nağd milli valyutanı (kağız və metal pul nişanları) və milli valyutada ifadə olunmuş

PwC Azerbaijan Times

18 saylı Buraxılış

qiymətli kağızları gömrük orqanlarına şifahi formada bəyan etməklə, 20000 manat və ondan yuxarı məbləğdə olan nağd milli valyutanı (kağız və metal pul nişanları) və milli valyutada ifadə olunmuş qiymətli kağızları gömrük orqanlarına yazılı formada tam məbləğdə bəyan etməklə, Azərbaycan Respublikasından çıxara və Azərbaycan Respublikasına gətirə bilərlər.

Həmçinin, rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər milli valyutanı məhdudiyyət olmadan müvəkkil banklar və ya poçt rabitəsinin milli operatoru vasitəsilə köçürmə yolu ilə Azərbaycan Respublikasından çıxara və Azərbaycan Respublikasına gətirə bilərlər.

Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında Nazirlər Kabinetinin Qərarları

Nazirlər Kabinetinin 13 oktyabr 2018-ci il tarixli №443 və №444 Qərarları ilə Əqli Mülkiyyət Agentliyinin tabeliyində adıçəkilən Mərkəzlərin Nizamnamələri təsdiq olunub. Qərara əsasən, Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin əsas məqsədləri sırasına aşağıdakılar daxildir:

- mərkəzin fəaliyyətinin məqsədi Agentliyə daxil olmuş ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstəricilər barədə iddia sənədlərinin ekspertizasını aparmaq;
- ekspertiza ilə bağlı digər məsələləri qanunvericiliyə uyğun olaraq həyata keçirmək və əqli mülkiyyət sahəsində maarifləndirilmə və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılmasında iştirak etmək.

Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin əsas məqsədlərinə isə aşağıdakılar daxildir:

- müəlliflərin və hüquq sahiblərinin əqli mülkiyyət hüquqlarının təminatının və idarəçiliyinin həyata keçirilmək;
- Əqli mülkiyyət sahəsində maarifləndirilmə və əqli mülkiyyət mədəniyyətinin formalaşdırılmasında iştirak etmək.

Vergi mübahisələri üzrə məhkəmə təcrübəsi

Predmet: Vergi borcuna görə ölkədən getmə hüququnun məhdudlaşdırılması

Vergi borcu: təxminən 55 min manat

Məhkəmə instansiyası: Apellyasiya Məhkəməsi

Qərarın tarixi: 02 noyabr 2016-cı il

İşin mahiyyəti:

Vergi orqanı Şirkətə hesabladığı vergi borcunun ödənilməsinin təmin edilməsi məqsədilə Şirkətin qanuni təmsilçisinin ölkədən getmə hüququnun məhdudlaşdırılması barədə məhkəməyə müraciət edir. Birinci instansiya məhkəməsi vergi orqanının tələbini təmin edir. Şirkət birinci instansiya məhkəməsinin qərarından apellyasiya şikayəti verir.

Şirkətin mövqeyi:

Şirkətin qanuni təmsilçisi qeyd edir ki, Bakı şəhər Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərinin dövlət qeydiyyatı İdarəsi tərəfindən verilən Çıxarışa əsasən, o, adıçəkilən Şirkətin qanuni təmsilçisi olaraq 2013-cü ilin aprel ayından fəaliyyətə başlayıb. Halbuki, vergi yoxlaması 2010-cu ilin II rübü və 2013-cü ilin I rübü aralığını əhatə edib.

Məhkəmənin qərarı:

Apellyasiya Məhkəməsi şirkətin lehinə qərar çıxararaq, Şirkətin qanuni təmsilçisinin ölkədən getmə hüququnu təmin etmişdir.

PwC Azərbaycan "Qlobal Influencer Day" Konqresinin Gümüş Sponsoru kimi iştirak edib

PwC Azərbaycan 27 oktyabr 2018-ci il tarixində Heydər Əliyev Mərkəzində keçirilmiş "Qlobal Influencer Day" Konqresinin Gümüş Sponsoru kimi iştirak edib.

PwC Azərbaycan şirkətinin marketinq, kommunikasiya və biznesin inkişafı şöbəsinin rəhbəri Aysel Süleymanova "Rəqəmsal erada trendlərə uyğunlaşmaq" mövzusunda çıxış edərək, sosial medianın brendin nüfuzuna və ümumi brend təcrübəsinə təsiri, eləcə də rəqəmsal erada işlərin fərqli həyata keçirilməsinin əhəmiyyətini vurğulayıb. O, həmçinin PwC tərəfindən təşkil edilmiş "2018-ci ildə İstehlakçıların Seçimləri ilə bağlı Qlobal Tədqiqatın" əsas nəticələrini də paylaşıb.

Rəqəmsal və texnoloji nailiyyətlər biznes tərzini yenidən formalaşdırır. Biznes və sənaye sahəsindəki dərin biliklərimizi rəqəmsal innovasiyalarla birləşdirərək, PwC-nin sənaye və texnologiyalar üzrə kreativ mütəxəssisləri rəqəmsal texnologiyaların uğurlu şəkildə tətbiqi sürətləndirməyə kömək edir.